**Yusif Əli oğlu HƏSƏNLİ**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

# AQRAR SFERADA YERLİ İSTEHSALIN SƏMƏRƏLİLİK PROBLEMLƏRİ VƏ İXRAC POTENSİALININ ARTIRILMASINA DAİR BEYNƏLXALQ TƏCRÜBƏ

**Xülasə**

*Tədqiqatın məqsədi* – aqrar sferada yerli istehsalın səmərəlilik problemləri və ixrac potensialının artırılmasına dair beynəlxalq təcrübənin öyrənilməsi və istifadə edilməsi imkanlarının müəyyənləşdirilməsidir. Aqrar sferada yerli istehsalın səmərəlilik problemləri açıqlanmış və sistemləşdiirlmişdir. Aqrar sahədə ixrac potensialının artırılması imkanları araşdırılmışdır. Bir qrup ölkələrin bu sahədəki mütərəqqi fəaliyyət formaları və modelləri təhlil edilmişdir. Yeni çağırışlar nəzərə alınmaqla aqrar sektorda yerli istehsalın səmərəliliyinin yüksəldilməsi və ixrac potensialının artırılması üzrə bir qrup ölkələrin təcrübəsi ümumiləşdirilmişdir.

*Tədqiqatın metodu* formasında bir sıra metodlardan, o cümlədən təhlil, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Digər tərəfdən, aqrar sahədə yerli istehsalın səmərəlilik problemləri və ixrac potensialının yüksəldilməsi üzrə aparılmış tədqiqatlara və əsaslandırılmış metodologiyalara istinad olunmuşdur.

*Tədqiqatın nəticələri* – olaraq alınmış nəticələrindən – müasir çağırışlar şəraitində müxtəlif dünya ölkələrinin təcrübəsindən istifadə etməklə, ölkəmizdə aqrar sahədə yerli istehsalın səmərəliliyinin və ixrac potensialının artırılması istiqamətində tədbirlərin hazırlanmasında istifadə edilə bilər.

**Açar sözlər**: dünya ölkələri, aqrar sahə, yerli istehsal, səmərəlilik problemləri, ixrac potensialı, beynəlxalq təcrübə.

**UOT:** 338.436
**JEL:** Q10; O24; Q17
**DOI:** https://doi.org/ 10.54414/TKMO1284

## Giriş

Ölkənin xarici iqtisadi əlaqələrinin genişləndiyi bir dövrdə, sənaye sahələrində o cümlədən aqrar sahədə yerli istehsalın səmərəliliyinin təmin edilməsi və ixrac potensialının formalaşdırılması üzrə kompleks tədbirlərin reallaşdırılmasına ehtiyac artmaqdadır. Dünya iqtisadiyyatının qloballaşması şəraitində ölkənin aqrar sahəsində istehsalın səmərəliliyinin təmin edilməsi təkcə yerli müəssisələrin daxili istehlak üçün zəruri kənd təsərrüfatı məhsulları istehsal etmək imkanını deyil, habelə xarici bazarda rəqabətədavamlı məhsul istehsal etmək imkanlarını ifadə edir, eləcə də aqrar sahə müəssisələrinin xarici bazarlara çıxışı üçün səmərəli prosesi təşkil edir [8, s. 266]. Bir sıra dünya ölkələrində aqrar sahədə yerli istehsalın səmərəliliyinin təmin edilməsi və ixrac potensialının formalaşdırılması üçün aqrar sənaye komplekslərinin fəaliyyətinə dövlət dəstəyi tədbirləri aktiv şəkildə tətbiq edilir. Hazırda xarici ölkələrdə aqrar sahə məhsulları istehsalçılarına dövlət dəstəyi fəal müzakirə obyektinə çevrilib. Xarici ölkələrdə aqrar sahə istehsalının dövlət tənzimlənməsi bu sahədə maliyyə və aqrar siyasətinin rıçaqlarından biridir.

İnkişaf etmiş ölkələrin (İEÖ) aqrar sahəyə dövlət dəstəyi sisteminə aşağıdakılar daxildir: büdcə vəsaiti hesabına kənd təsərrüfatı texnikasının və damazlıq heyvanların lizinqi, aqrar sahə müəssisələrinin büdcə borclarının restrukturizasiyası, investisiya fəaliyyətinin maliyyələşdirilməsi, güzəştli kreditləşdirilməsi və vergiyə cəlb edilməsi, aqrar sahə məhsullarının dövlət satınalınması, aqrar sahə elminə dəstək. Dövlət dəstəyinin miqdarı demək olar ki, ölkənin gəlir səviyyəsindən asılıdır [9, s.178].

**Aqrar sferada yerli istehsalın səmərəliliyinin təmin edilməsi üzrə dünya ölkələrinin təcrübəsinin təhlili**

Aqrar sahənin dövlət tənzimlənməsinin xarici təcrübəsi müxtəlif ölkələrdə müxtəlifdir və bir çox tədbirləri və alətləri əhatə edə bilər və bu fərqlər həm metodoloji və təşkilati xarakter daşıyır [2, s. 143]. Məsələn, Avropa ölkələrində və ABŞ-da kənd təsərrüfatına dövlət dəstəyi bir sıra qaydalar və proqramlar vasitəsilə reallaşdırılır. Avropa və ABŞ-da istehsalın səmərəliliyinin artırılması, kənd təsərrüfatı infrastrukturunun inkişafı, kiçik və orta fermer təsərrüfatlarının dəstəklənməsi, ətraf mühitin qorunması və digər məqsədlərə yönəlmiş müxtəlif aqrar sahənin inkişafı proqramları mövcuddur. Bu ölkələr sabit tələbatı təmin etmək və fermerlərə dəstək olmaq üçün aqrar sahə məhsulları üzrə daha səmərəli dövlət satınalma mexanizmlərindən də istifadə edirlər. Ümumiyyətlə, Aİ ölkələri və ABŞ tərəfindən aqrar sahəyə dəstək kənd təsərrüfatı sektorunun davamlı inkişafının təmin edilməsi, fermerlərin dəstəklənməsi və ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıyır. Aİ-də aqrar sahəyə dəstək tədbirlərini nəzərdə tutan Ümumi Kənd Təsərrüfatı Siyasəti mövcuddur. Həmin siyasət çərçivəsinə fermerlərə maliyyə dəstəyi, kənd təsərrüfatı məhsullarının qiymətlərinin və bazarlarının tənzimlənməsi, ətraf mühitin mühafizəsi, məhsulların keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi və s. tədbirlər daxildir. Aqrar sahəyə dövlət dəstəyi tədbirlərini reallaşdırmaq məqsədilə Aİ ölkələrinin hökuməti ÜTT-də hazırlanmış aqrar sahə müəssisələrinin dövlət tənzimlənməsi tədbirlərinin əksəriyyətindən istifadə edir.

Aİ-nin qiymət siyasətinin əsas alətlərindən biri aqrar sahə məhsulları istehsalçıları üçün birbaşa ödənişlər sistemidir. Bu ödənişlər istehsalçılara bazar qiyməti ilə aldıqları məhsulun qiyməti arasındakı fərqə görə kompensasiya şəklində verilir. Beləliklə, istehsalçılar sabit gəlir əldə edə və proqnozlaşdırıla bilən gəlir əsasında fəaliyyətlərini planlaşdıra bilərlər. Bundan əlavə, Aİ ölkələrində qiymət siyasətinə aqrar sahə məhsullarının idxalı və ixracının tənzimlənməsi mexanizmi də daxildir. Məsələn, aqrar sahə məhsullarına idxal tariflərinin və kvotaların tətbiqi yerli istehsalçıları lüzumsuz xarici rəqabətdən qorumağa kömək edə bilər. Aİ ölkələrində qiymət siyasətinin önəmli aspekti həmin siyasət üçün ümumi qaydaların müəyyənləşdirilməsində üzv dövlətlər arasında əməkdaşlıqdır. Aİ-də müəyyənləşdirilmiş qiymət siyasəti ilə yanaşı, proteksionist yönümlü gömrük tənzimlənməsindən də istifadə olunur. Kənd təsərrüfatı istehsalçılarının istehsal etdiyi idxal məhsulları Aİ daxilində daxili bazarda müəyyənləşdirilən qiymətlərdən aşağı qiymətə satıla bilməz. Avropa ölkələrində güzəştli kreditləşmə aqrar sahəyə dövlət dəstəyi alətlərindən biridir. Xüsusi proqramlar və fondlar vasitəsilə fermerlərə güzəştli şərtlərlə, daha aşağı faizlə və ya geri ödəmə şərtləri ilə kreditlər verilir. Bu, aqrar sahə müəssisələrinə istehsalın inkişafı və modernləşdirilməsi, texnika və ya torpaq əldə etmək üçün lazımi maliyyə resursları əldə etməyə kömək edir. Avropa ölkələrində aqrar sahənin kreditləşdirilməsində xüsusi ixtisaslaşmış və korporativ banklar banklar fəal iştirak edirlər. Almaniyada aqrar sahəyə güzəştli kreditlər vermək məqsədilə yaradılmış banklara müəyyən vergi güzəştləri tətbiq edilir. Həmin bankların verdiyi kreditlər üzrə faiz dərəcələri 6,8-7,3% aralığında dəyişir. Fermerlər belə banklara müraciəti adətən orta və uzunmüddətli kreditlər üçün edirlər [3, s.17]. Güzəştli kreditlər istər dövlət bankları, istərsə də fondlar, yaxud dövlət zəmanəti və ya subsidiya alan kommersiya bankları vasitəsilə də verilə bilər. Bu cür proqramlar ölkə və ya regional ola bilər və onların şərtləri və tələbləri ölkədən ölkəyə dəyişə bilər [7, s. 87]. Güzəştli kreditləşmənin məqsədi aqrar sahənin inkişafını stimullaşdırmaq, onun rəqabət qabiliyyətini və dayanıqlığını artırmaq, həmçinin kiçik və orta fermer təsərrüfatlarını dəstəkləməkdir. O, həmçinin ərzaq təhlükəsizliyi, ətraf mühitin mühafizəsi və kənd yerlərinin inkişafı məqsədləri ilə əlaqələndirilə bilər. Odur ki, güzəştli kreditlər aqrar sahəyə dövlət dəstəyinin önəmli alətidir, fermerlərə müəssisələri inkişaf etdirməyə, aqrar sahə məhsullarının istehsalı və satışı ilə bağlı maliyyə çətinliklərinin öhdəsindən gəlməyə kömək edir [6, s. 63**]**.

Almaniya kənd təsərrüfatı məhsulları istehsal edən aparıcı ölkələrdən biridir. Kənd təsərrüfatında əsas sahə heyvandarlıqdır ki, ümumi sahənin təxminən 65%-ni təşkil edir. Almaniyada kənd təsərrüfatı haqqında əsas qanun 1955-ci ildə qəbul edilmiş, bu qanunda aqrar siyasətin dövlət miqyasında formalaşması üçün əsaslar qoyulmuşdur. Almaniyada kənd təsərrüfatının dövlət tənzimlənməsi Ümumi Kənd Təsərrüfatı

Siyasəti çərçivəsində reallaşdırılır. Dövlət dəstəyinin əsas istiqamətləri aqrar sənaye müəssisələrində əmək məhsuldarlığının artırılması, eləcə də istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılması və subsidiyalaşdırma mexanizminin təkmilləşdirilməsi ilə bağlıdır. Almaniya aqrar sektora qarışıq kreditləşdirmə tətbiq edilməklə kənd təsərrüfatı istehsalının inkişafına dəstək verən ölkədir. Almaniyada aqrar sektorun kreditləşməsi ixtisaslaşmış banklar, özəl kommersiya bankları, kooperativ banklar, ipoteka bankları və əmanət kassaları tərəfindən reallaşdırılır [4, s. 197].

Dövlət dəstəyinin əsas prinsipi aqrar sahə məhsullarının dünya qiymətlərinin dinamikasının nəzərə alınmasıdır: dünya qiymətləri nə qədər yüksəkdirsə, dövlət dəstəyinin səviyyəsi də bir o qədər aşağı olur. Bu prinsip aqrar sahə istehsalçılarının dünya bazarında məhsulların aşağı qiymətlərlə rəqabət qabiliyyətini saxlamağa və yüksək qiymətlərlə büdcəyə qənaət etməyə kömək edir. Almaniyada aqrar sahənin dəstəklənməsi üzrə əsas strategiya aşağıdakı istiqamətlərdə reallaşdırılır: 1) sənayenin investisiya cəlbediciliyinin artırılması; 2) innovasiyaların tətbiqi və elmi bazanın inkişafı; 3) iş yerlərinin yaradılması və işçilərin layiqli əmək haqqı ilə təmin edilməsi [11, s.16]. Güclü sənaye və səmərəli aqrar sahə istehsalına malik dövlətlərdən biri Danimarkadır. Aqrar sahə Danimarkanın milli iqtisadiyyatın əsas sahələrindən biridir. O, yüksək mexanikləşdirmə və avtomatlaşdırma dərəcəsi ilə xarakterizə olunur. İxracın təqribən beşdə bir hissəsi aqrar sahə məhsullarının payına düşür. Danimarka həm ərzaq ixrac edən, həm də inkişaf etmiş aqrar-sənaye inteqrasiyası və əməkdaşlığı olan ölkə üçün yaxşı nümunədir [12, s.76]. Danimarkada aqrar sahənin formalaşması və yaranması prosesi digər İEÖ-lərlə müqayisədə xeyli əvvəl başlamışdır ki, bu da aqrar sahə istehsalının sənaye əsasına daha erkən keçidi ilə bağlıdır. Digər İEÖ-lərdən fərqli olaraq Danimarkanın xarakterik xüsusiyyəti kənd təsərrüfatı kooperasiyasının üstünlük təşkil etdiyi aqrar sənaye kompleksinin (ASK) formalaşmasıdır ki, bu, ilk öncə, sənaye əməkdaşlığına əsaslanır. Fəaliyyət göstərdikləri onilliklər ərzində aqrar sahə istehsalçılarının kooperativ assosiasiyaları Danimarkada həmin sahə məhsullarının emalı və satışı ilə yanaşı, kənd təsərrüfatı üçün ərzaq xidmətlərinin təşkili sahəsində özlərinin geniş yayılmış şəbəkəsini yaratmışlar. Beləliklə, ildən-ilə kooperativ birliklərinin sayı artır və bununla əlaqədar olaraq bu sahənin məhsuldarlığı da artır.

ABŞ-da aqrar sahəyə dövlət dəstəyi Federal Təsərrüfat Proqramı vasitəsilə reallaşdırılır ki, bu proqram fermerlərə birbaşa ödənişlər, məhsul sığortası subsidiyaları, kreditlər və digər dəstək formalarında maliyyə yardımı göstərir. ABŞ-da aqrar sektorun dövlət tənzimlənməsi Kənd Təsərrüfatı Departamenti vasitəsilə reallaşdırılır. O, fermerlərə maliyyə dəstəyi verir, ərzaq təhlükəsizliyi proqramlarını hazırlayır və reallaşdırır, məhsulların keyfiyyətinə və təhlükəsizliyinə nəzarət edir, aqrar sahə üzrə tədqiqat və inkişaf işləri aparır. Çoxsaylı tədqiqatlar göstərir ki, kənd təsərrüfatı elminə qoyulan investisiyalar aqrar sahəyə yönəldilən birbaşa investisiyalardan qat-qat səmərəlidir. Hələ 1992-ci ildə kanadalı alimlər aqrar sahədə tədqiqatlara yatırılan hər dolların məhsuldarlığın 40 dollar artması ilə nəticələndiyini təsbit etmişdilər. ABŞ hökumətinin səmərəli aqrar siyasəti ölkəyə kənd təsərrüfatı məhsullarının aparıcı ixracatçısına çevrilməyə imkan verib. ABŞ-ın aqrar sahəyə dövlət dəstəyi, xüsusilə, aşağıdakı qiymət növlərinin istifadəsinə əsaslanan qiymət sistemi vasitəsilə reallaşdırılır: aqrar sahə məhsullarının ən önəmli növlərinə tətbiq edilən məqsədli və ya zəmanətli qiymətlər. Məqsədli qiymətlərin səviyyəsi elə hesablanır ki, onlar aşağı və orta xərcləri olan təsərrüfatlara özlərinin genişlənmiş təkrar istehsalını maliyyələşdirmək üçün kifayət qədər gəlir səviyyəsini təmin etsin; aqrar sahə məhsulları üçün qiymətlərin aşağı həddini əks etdirən girov qiymətləri. Bu qiymət bazar qiymətləri girov qiymətindən aşağı olduqda istifadə olunur. ABŞ-da aqrar sektorda təxminən bir milyon amerikalı fermer çalışır ki, bu da ölkənin işçi qüvvəsinin 2%-dən bir qədər çoxunu təşkil edir. ABŞ fermerləri əmək məhsuldarlığına görə dünyada birinci yerdədirlər. Bu ölkədə fermerlər hava şəraitinə və bazardakı qeyri-müəyyənliklərə baxmayaraq, daha çox məhsul əldə edə bilirlər.

Belarus Respublikasında ASK-nın dövlət tənzimlənməsi aqrar sahəyə dövlət dəstəyi tədbirlərini müəyyənləşdirən bir sıra normativ hüquqi aktlar vasitəsilə reallaşdırılır ki, bunlarda

biri "Kənd təsərrüfatının və kənd yerlərinin inkişafı haqqında" Qanundur. Bu qanun kənd təsərrüfatı sahəsində dövlət siyasətinin əsas prinsiplərini və məqsədlərini, o cümlədən ASK-nın inkişafının stimullaşdırılmasına yönəlmiş dövlət dəstəyi tədbirlərini müəyyənləşdirir [13, s.45]. Belarus Respublikasında ASK-nın inkişafı və kənd təsərrüfatı təşkilatlarına dövlət dəstəyinin göstərilməsi mexanizmlərinin səmərəliliyinin artırılması məqsədilə "Dövlət aqrar siyasəti haqqında" Prezident Fərmanı qəbul edilib. Bu Fərmana əsasən, dövlət aqrar siyasəti ölkənin daxili siyasətinin əsas istiqamətlərindən biridir. Aqrar sahə müəssisələrinin iqtisadi səmərəliliyinin artırılması həmin sahə məhsulları istehsalının daha müfəssəl ixtisaslaşdırılması və onların təşkilati-təsərrüfat strukturunun təkmilləşdirilməsi, habelə torpaq fondlarından səmərəli istifadə və kənd təsərrüfatı müəssisələrinə dövlət dəstəyi əsasında reallaşdırılır [1, s. 27]. Fərmanda qeyd olunur ki, Belarus Respublikasında aqrar sahə müəssisələrinə dövlət dəstəyi birbaşa və dolayı tədbirləri nəzərdə tutur. Birbaşa tədbirlərin reallaşdırılması aqrar sahə müəssisələrinin dövlət və yerli büdcə vəsaitləri hesabına maliyyələşdirilməsi yolu ilə həyata keçirilir.

Çinin ASK-ya dövlət dəstəyi də maraqlıdır ki, bu da öz xüsusiyyətlərinə malikdir. Birincisi, aqrar sahə Çin iqtisadiyyatında, xüsusilə məşğulluq və ərzaq təhlükəsizliyində önəmli rol oynayır. Hökumət nəzarəti aqrar sahənin sabitliyini qorumağa, kifayət qədər aqrar sahə istehsalının təmin edilməsinə və ərzaq qiymətlərinin qeyri-sabitliyinin qarşısını almağa kömək edir. İkincisi, Çinin aqrar sahəsinə hökumət nəzarəti şəhər və kənd yerləri arasındakı fərqi azaltmaq və kənd əhalisinin həyatını və gəlirlərini yaxşılaşdırmaq məqsədi daşıyır. Məsələn, dövlət kənd sakinlərinə subsidiyalar və güzəştlər verir, kənd yerlərində infrastrukturun inkişafını maliyyələşdirir, aqrar sahə müəssisələrinə kreditlər və digər maliyyə resursları verir. Üçüncüsü, Çində aqrar sahənin dövlət tənzimlənməsi də aqrar sahə istehsalının səmərəliliyinin artırılmasına və yeni texnologiyaların tətbiqinə yönəlib. Məsələn, dövlət aqrar sahədə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə sərmayə qoyur, torpağın becərilməsinin müasir üsullarının, müasir texnologiyanın tətbiqinə və istehsalın mexanikləşdirilməsinə dəstək verir. Çində kənd təsərrüfatı sektorunun dövlət tənzimlənməsi Kənd Təsərrüfatı və Kənd İnkişaf Nazirliyi vasitəsilə reallaşdırılır. Buraya fermerlərə maliyyə dəstəyi, kənd təsərrüfatı məhsullarının məhsuldarlığının və keyfiyyətinin artırılması proqramlarının hazırlanması və reallaşdırılması, torpaq və su ehtiyatlarından istifadəyə nəzarət daxildir. Çinin ASK-sı demək olar ki, əhalinin ərzaq təminatı məsələsini uğurla həll edir, istehsal və ixrac tədarükünü artırır. Çin aqrar sahə müəssisələrinin maraqları ölkə hüdudlarından çox kənara çıxır, digər ölkələrin kənd təsərrüfatına aktiv investisiyalar qoyulur. Çin hökuməti kənd təsərrüfatı sektorunda dövlətin rolunun artırılmasının tərəfdarıdır, çünki inzibati vasitələr ölkənin ərzaq təhlükəsizliyinin və ixrac potensialının artırılmasına kömək edir. Bu gün Çin iqtisadiyyatı daha da islahatlar aparmağa və kənd təsərrüfatı, heyvandarlıq və toxumçuluq, meşə və balıqçılıq sahələrində innovasiyaları dəstəkləməyə yönəlib.

## Müasir dövrdə aqrar sektorda yerli istehsalın səmərəliliyinin artırılması və ixracın genişləndirilməsinə dair beynəlxalq təcrübənin mühüm aspektləri

Qeyd edək ki, aqrar sahəsi İEÖ-lərin təcrübəsinə əsasən demək olar ki, bu ölkələrdə reallaşdırılan dövlət təstəyi tədbirləri həmin sahədə yerli istehsalın səmərəliliyinin təmin edilməsi və ixrac potensialının formalaşdırılması baxımından önəmlidir. ASK-nın ixrac potensialı rəqabətqabiliyyətli məhsul yaratmaq üçün milli kənd təsərrüfatının istehsal və əmək vasitələrinin tədarükünü təmin etmək, əmtəəlik məhsulların imkanları üçün texniki, iqtisadi, maliyyə, sosial və idarəetmə ehtiyatların məcmusudur [10, s.530]. Bir sıra xarici ölkələr, o cümlədən, İspaniya, ABŞ, İtaliya, Almaniya, İspaniya, Portuqaliya, Fransa, Cənubi Koreya qlobal son istehlakda daxili əlavə dəyərin yüksək səviyyəsi ilə xarakterizə olunur: Bu qrupun ölkələri xarici komponentlərin xaricə eyni vaxtda satışı ilə məhsulların ixrac potensialının genişlənməsi ilə xarakterizə olunur. Aqrar sənaye məhsullarının keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsi fonunda dünyanın aparıcı dövlətləri olan Cənubi Koreya, Tayvan,

Honq-Konq və Çinin iqtisadi potensialı yüksəlir. Aqrar məhsulların ən böyük ixracatçısı Latın Amerikası ölkələridir ki, burada istehsalda əhəmiyyətli artım istehlakı qabaqlayır. İkinci ən mühüm xalis ixracatçı Şimali Amerikadır, lakin bu, istehsal artımından daha çox regionda istehlakın durğunluğunun nəticəsidir. Şərqi Avropa və Mərkəzi Asiya xalis idxalçılardan xalis ixracatçılara keçid prosesini demək olar keçmişlər [14, s.50]. Oxşar tendensiya qeyri-ərzaq xarakterli kənd təsərrüfatı məhsulları və aqrar ixrac üçün xarakterikdir. Kənd təsərrüfatının inkişafı ifrat yoxsulluğun aradan qaldırılması və orta təbəqənin firavanlığına nail olmaq üçün ən güclü vasitələrdən biridir. Kənd təsərrüfatı sektorunun iki-dörd dəfə artması (ölkədən asılı olaraq) digər sektorlarla müqayisədə əhalinin ən yoxsul təbəqələri arasında gəlirlərin artması ilə daha effektivdir. Kənd təsərrüfatı inkişaf etməkdə olan ölkələrdə (İEOÖ) iqtisadi artımın faktorudur, burada yoxsulların əksəriyyəti kənd təsərrüfatı hesabına yaşayır.

Müxtəlif inkişaf səviyyələrinə malik ölkələrin aqrar sahə məhsullarının ixracının müqayisəli təhlili təsdiq etməyə imkan verir ki, aqrar məhsulların ixracının inkişafı üçün əsas vektorlar inkişaf etmiş və İEOÖ-lərdə əhəmiyyətli fərqlərə malikdir. İEOÖ-lərdə aqrar sahə məhsullarının ixracı ÜDM-də kənd təsərrüfatı sektorunun nisbi əhəmiyyətini, kənd təsərrüfatı istehsalının vəziyyətini, səviyyəsini və strukturunu, hökumətin infrastruktur layihələri üzrə uzunmüddətli ümumi iqtisadi planlarını, maliyyə sektorunun vəziyyətini əks etdirir. İEOÖ-lərdə aqrar sahə məhsullarının ixracının spesifik xüsusiyyətləri onların iqtisadiyyatlarının aqrar sahədən asılılığı, həmin sahənin ixracının iqtisadi artımın stimulu və gəlir mənbələri kimi yüksək rolu ilə bağlıdır. Milli, coğrafi və təbii resurs xüsusiyyətlərinə baxmayaraq, İEOÖ-lərin bu qrup ölkələrə xas olan aqrar sahə məhsullarının ixracının müsbət və mənfi təsirlərini müəyyənləşdirən ümumi problemləri var.

Aqrar sahənin ixrac potensialının artırılmasının əsas amili innovasiyadır. Aqrar ixrac potensialını innovasiyaların tətbiqi yolu ilə artıran dünyanın ən parlaq nümunəsi Niderlanddır. Ölkə hər il təxminən 50 milyard ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulları ixrac edir və bu, onu ABŞ-dan sonra dünyanın ikinci ən böyük ixracatçısı edir. Niderlandın aqrar sektorda iqtisadi və texnoloji siyasəti əsasən dünyanın aparıcı kənd təsərrüfatı tədqiqat universiteti olan Wageningen Universiteti tərəfindən formalaşdırılır. Wageningen Universiteti milli aqrar innovasiya klasterinin uğurlu təşkili üçün bir modeldir. Kənd təsərrüfatı tədqiqatları Niderlandda kənd təsərrüfatı sektorunun inkişafının hərəkətverici qüvvələrindən biridir, çünki məhsulların istehsalı və satışının səmərəliliyi biliklərin təcrübə aparanlara, fermerlərə və digər aqrar sahibkarlara, o cümlədən treyderlər və emalçılara necə ötürülməsindən asılıdır [5, s.173].

**Nəticə**

Beləliklə, dünya ölkələrinin və ölkə qruplarının təcrübəsini ümumiləşdirmişik:

– ABŞ-da kənd təsərrüfatının və ümumilikdə aqrar sahənin inkişafı, ixracın artırılması üçün çoxşaxəli dövlət dəstəyi mexanizmləri və stimullaşdırıcı alətlər vardır;

– Aİ ölkələri öz məhsullarının beynəlxalq bazarlarda rəqabət qabiliyyətini təmin etmək üçün aqrar sahənin subsidiyalaşdırılmasına dövlət büdcəsindən xeyli vəsait xərcləyirlər;

– Kənd təsərrüfatını inkişaf etdirmək üçün Niderland hökuməti ilkin istehsalla məşğul olan şirkətlərlə emal sənayesi şirkətləri arasında əməkdaşlığı təşviq edir. Dövlət fermerlərə milli potensialın mühüm hissəsi kimi yanaşır, onları ordu və elmlə eyni səviyyəyə qoyur;

– MDB ölkələri arasında aqrar sahənin ixrac potensialının artırılması baxımından üçün ən cəlbedicisi ölkə Belarusun təcrübəsidir. Kənd təsərrüfatı və ərzaq məhsullarının ixracının artırılması Belarus Respublikasının aqrar siyasətinin prioritet istiqamətidir. Qonşu ölkələrdən fərqli olaraq, Belarus iri kənd təsərrüfatı müəssisələrinin inkişafına xüsusi önəm verən kurs seçib. Bu, kənd təsərrüfatı istehsalının ən yaxşı parametrlərini - əkin sahələrinin strukturunu, becərilən əsas bitki növlərini, südçülük təsərrüfatlarının və kökəlmə komplekslərinin, bütün növ məhsuldarlığa imkan verən maşın-traktor parkının ölçülərini müəyyənləşdirməyə imkan verir;

– Rusiya təcrübəsində aqrar sahə məhsullarının ixracının genişləndirilməsini təmin

etmək məqsədilə müxtəlif maliyyə mexanizmlərindən istifadə olunur: büdcə subsidiyaları, güzəştli bank kreditləri, ixracyönümlü layihələri inkişaf etdirən kiçik biznesə qrant dəstəyi, xüsusi investisiya müqavilələri və kənd təsərrüfatı əməkdaşlığı, dövlət-özəl tərəfdaşlıq, bank kreditləri və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əliyev, Ş.T. Azərbaycanda kənd təsərrüfatının və aqrar sənaye kompleksinin inkişafinin strateji aspektləri. //İpək Yolu jurnal, 2018, №2, S.23-32. https://au.edu.az/upload-files/menu/ipekyolu/2018_2/3Aliyev_Sh.pdf.
2. Əliyev, Ş.T. İlham Əliyevin kənd təsərrüfatı sahəsindəki islahatları real nəticələr verir. / İlham Əliyev-10 il hakimiyyətdə. Elmi-praktiki konfransın materialları. Bakı, "Şərq-Qərb" Nəşrıyyat Evi, 2013, s.141-156.
3. Heydərov, X.B. Aqrar sahədə sosial-iqtisadi idarəetmənin təkmilləşdirilməsi. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2016, 27 s.
4. Qafarov, N.C. Aqrar istehlak bazarının formalaşması və inkişafının iqtisadi problemləri. Monoqrafiya. Bakı: Kooperasiya nəşriyyatı, 2023, 320 s.
5. Акимова, Ю. А. Развитие сельского хозяйства и агробизнеса в Нидерландах / Ю. А. Акимова // Контентус. – 2017. – № 1(54). – С. 69-80.
6. Алиев, Ш. Т. Вопросы экономического роста и финансовых ресурсов Азербайджана в контексте нефтяного фактора. // Финансы и кредит. 2008 г. № 30. С.61–64. https://doi.org/10.5281/zenodo.14230404.
7. Алиев, Ш.Т. Важнейшие детерминанты устойчивого развития экономики Азербайджана. Книга. Баку, «Элм», 2010. - 196 с.
8. Алиев, Ш.Т. Экономика Азербайджана. Сумгайыт, 2018 – 376 с.
9. Нарынбаева, А.С. Зарубежный опыт государственного регулирования агропромышленного комплекса / А. С. Нарынбаева // Вестник Кыргызско-Российского Славянского университета. – 2014. – Т. 14, № 4. – С. 178-182.
10. Рыкова, И.Н. Экспортный потенциал агропромышленного комплекса в зарубежных странах / И.Н. Рыкова, Р.С. Губанов // Актуальные вопросы современной экономики. – 2020. – № 10. – С. 529-535.
11. Серогодский, В.Э. Анализ зарубежного опыта государственного регулирования АПК / В.Э. Серогодский // Электронное сетевое издание «Международный правовой курьер». – 2022. – № 2. – С. 15-18.
12. Уразов, М.С. Особенности развития агропромышленного комплекса Дании на современном этапе / М.С. Уразов // Панорама. – 2017. – Т. 30. – С. 75-80.
13. Чиназирова, С.К. Зарубежный опыт государственного регулирования АПК / С.К. Чиназирова // Вестник Адыгейского государственного университета. Серия 5: Экономика. – 2023. – № 1(315). – С. 43-49.
14. Kuzminov, M. Determination of agricultural export features in developing countries / M. Kuzminov // Technology audit and production reserves. – 2017. – Vol. 5, No. 5(37). – P. 49-54.

**Юсиф Али оглы ГАСАНЛЫ**
Докторант Азербайджанского Университета Кооперации,
AZ1124, Азербайджанская Республика,
г.Баку, улица Н.Нариманова 93
E-mail:yusifhasanli300@gmail.com

## МЕЖДУНАРОДНЫЙ ОПЫТ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ МЕСТНОГО ПРОИЗВОДСТВА В АГРАРНОМ СЕКТОРЕ И УВЕЛИЧЕНИЯ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА

**Резюме**

***Цель исследования*** является выявление возможностей изучения и использования международного опыта в аграрном секторе для решения вопросов эффективности местного производства и повышения экспортного потенциала. Разъяснены и систематизированы проблемы эффективности местного производства в аграрном секторе. Изучены возможности увеличения экспортного потенциала в сельскохозяйственном секторе. Проанализированы прогрессивные формы и модели деятельности группы стран в этой области. Обобщен опыт группы стран по повышению эффективности местного производства и наращиванию экспортного потенциала в аграрном секторе с учетом новых вызовов.

*В ходе исследования использовался ряд методов*, включая анализ, синтез, сравнение и обобщение. С другой стороны, были сделаны ссылки на исследования и обоснованные методики по проблемам эффективности местного производства в аграрном секторе и повышения экспортного потенциала.

*Результаты исследования* - полученные результаты - могут быть использованы при подготовке мер по повышению эффективности местного производства и экспортного потенциала в агропромышленном комплексе нашей страны, с использованием опыта различных стран мира в условиях современных вызовов.

**Ключевые слова:** страны мира, аграрный сектор, местное производство, проблемы эффективности, экспортный потенциал, международный опыт

**Yusif Ali HASANLI**
Doctoral student of Azerbaijan Cooperation University,
AZ1124, Republic of Azerbaijan,
Baku city, N.Narimanov str., 93
E-mail: yusifhasanli300@gmail.com

## INTERNATIONAL EXPERIENCE IN IMPROVING THE EFFICIENCY OF LOCAL PRODUCTION IN THE AGRICULTURAL SECTOR AND INCREASING EXPORT POTENTIAL

**Summary**

*The purpose of the research* - is to identify opportunities for studying and using international experience in the field of increasing the efficiency of local production and export potential in the agricultural sector. The problems of efficiency of local production in the agricultural sector have been explained and systematized. The possibilities of increasing the export potential in the agricultural sector have been investigated. The progressive forms and models of activity of a group of countries in this field have been analyzed. The experience of a group of countries in increasing the efficiency of local production in the agricultural sector and increasing the export potential, taking into account new challenges, has been summarized.

*A number of methods* were used in the form of the research method, including analysis, synthesis, comparison and generalization methods. On the other hand, reference was made to research and substantiated methodologies on the problems of efficiency of local production in the agricultural sector and increasing export potential.

*The results of the research* - the results obtained - can be used in the preparation of measures to increase the efficiency of local production and export potential in the agricultural sector in our country, using the experience of various countries of the world in the conditions of modern challenges.

***Key words:*** countries of the world, agricultural sector, local production, efficiency problems, export potential, international experience.